SEVİL GÜL NUR

# ŞUŞA QARTALI

Bakı – 2021

***Kitabın nəşr olunmasında göstərdiyi maddi dəstəyə görə Həsənov Şahin Kamil oğluna təşəkkür edirik.***

Redaktor: **Balayar Sadiq**
*AYB-nin üzvü,*
*Prezident mükafatçısı,*
*Beynəlxalq Rəsul Rza*
*ədəbi mükafatı laureatı,*
*"Yurd" ədəbi-bədii jurnalının*
*baş redaktoru*

**Gülnarə İsrafil**
*şair-yazıçı*

**Rəssam: Sehran Allahverdi**

**Sevil Gül Nur. Şuşa qartalı.**
Bakı, "Gənclik" nəşriyyatı, 2021, 78 səh.

**Kitab Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış Saday Məmmədəliyevin həyat və döyüş yolundan bəhs edir. Müəllif bədii-publisist dillə vətənin səhid oğlunun şanlı obrazını məhəbbətlə canlandırıb.**

**İnanırıq ki, bu kitab səhid ruhuna ehtiram nümunəsi kimi oxucuların hörmətini qazanacaq.**

**İSBN 978-8020-1843-7-5**

**© Sevil Gül Nur, 2021**

# ŞUŞA QARTALI

Dərsin başlanmasına hələ var idi. Bu vaxtdan istifadə edən onuncular ev tapşırığını təkrarlayır, öyrəndiklərini sinif yoldaşları ilə müzakirə edirdilər. Saday pəncərənin qarşısında dayanıb səmaya baxırdı. Bu gün hava tutqun idi. Qara buludlar mavi səmanın üzünü örtmüş, onun gözəlliyini hamıdan gizlətmişdi. Göylər buludların əsarəti altında çırpınır, küləklərdən imdad diləyirdi. Belə hava onun ruhunu sıxır, ürəyini darıxdırırdı. Birdən Sadayın ürəyindən bir arzu keçdi: "Kaş əllərim göyə yetəydi, bir anda o qara buludları qovar, mavi səmadan uzaqlaşdırardım". Sonra öz arzusuna özünün də gülməyi gəldi: "O boyda da əl olar?! Adam əlini yığışdıra bilməz ki onda".

– Yenə xəyalın haralara gedib? – deyə dostu Şahin ona yaxınlaşdı.

– Buludlara baxıram. Onlarsız göy üzü necə xoşbəxt olardı...

– Hə, elədir, – Şahin onun fikrini təsdiqlədi, – amma təbiətin qanunu var, göy üzü buludlu da ola bilir.

Saday dostuna bir söz deməyib yerinə keçdi. Bəlkə də düşüncəsində onunla razı idi. Amma ürəyində səmanın bu halına üzülürdü.

İradə müəllim artıq neçə il idi ki, onlara Azərbaycan dili-ədəbiyyat fənnini tədris edirdi. Doğma dilin incəliklərini, qanunauyğunluqlarını izah etdikcə, şagirdlər bu dilə daha çox bağlanmış, onu daha çox sevməyə başlamışdılar. İradə müəllim yeri gəldikcə öz fənni ilə əlaqələndirərək Azərbaycan tarixi barədə də şagirdlərə müəyyən bilgilər verirdi. Saday bu iki fənni çox sevirdi. Hər dəfə bu dərslərə hazır olurdu. Onu daha çox Azərbaycan torpaqlarının XX əsrin sonlarında işğala məruz qalması maraqlandırırdı. Bu hadisələrin necə baş verdiyini, niyə baş verdiyini, nə vaxta kimi davam edəcəyini ağlına sığışdıra bilmirdi. Hər dəfə böyüklərdən soruşduğu sualların bir cavabı olurdu: «Tezliklə torpaqlarımızı işğaldan azad edəcəyik». Amma o «tezliyin» nə zaman olacağını heç kim bilmirdi.

Dərsin başlandığını bildirən zəngin səsi Sadayı düşüncələrdən ayırdı. İradə müəllim əlində jurnal sinfə daxil oldu. Adəti üzrə şagirdləri şən səslə salamlayıb jurnalı açdı.

– Hə, görək kim var, kim yox?– deyib bir-bir adları sadalamağa başladı.

Ev tapşırıqlarını yoxlayıb, yeni dərsə keçdi.

– Uşaqlar, deyə bilərsinizmi, «qəhrəmanlıq» nədir?

Hərə bu suala bir cür cavab verdi:

– Vətəni qorumaq.

– Dara düşəni xilas etmək.

– Çətin işi yerinə yetirmək.

– Vətən uğrunda döyüşmək.

– Qəhrəmanlıq – vətən torpağını yağı düşməndən azad etmək, lazım gələrsə, vətən yolunda canını qurban verməkdir, – Saday yerindən dilləndi.

– Çox dolğun cavab verdin, Saday. Bəs qəhrəmanlardan kimi tanıyırsan?

– Mübariz İbrahimovu. O, təkbaşına düşmən səngərinə keçib, çox sayda düşməni məhv edib və şəhid olub.

– Bəli, doğrudur, əhsən! – deyə İradə müəllim qürurla dilləndi, sonra üzünü uşaqlara tutub əlavə etdi:

– Uşaqlar, elə bugünkü dərsimiz də Milli Qəhrəman Mübariz İbrahimov haqqındadır. İndi mən sizə Mustafa Çəmənlinin “Mübariz” hekayəsini oxuyacağam, qəhrəmanımızı daha yaxından tanıyacaqsınız.

Uşaqlar diqqətlə müəllimə qulaq asırdılar. Mübarizin göstərdiyi şücaət onları həm qürurlandırmış, həm də cəsarətləndirmişdi. Hekayənin sonunda Saday özünü saxlaya bilməyib dilləndi:

– Müəllim, hekayəni elə oxudunuz ki, adamın lap şəhid olmağı gəldi.

Bu sözdən qəlbi riqqətə gələn müəllim dedi:

– Şəhidlik müqəddəs zirvədir, o ucalığa yüksələnlər əbədiyaşardırlar, ölümsüzdürlər. Amma oğlum, əlinə silah alan hər əsgər öncə düşməni məhv etməyi düşünməlidir. Torpaqlarımızın azadlığı, xalqımızın rahatlığı əsgərlərimizin sayəsindədir. Ona görə də onlar həmişə var olmalıdırlar.

Ev tapşırığı olaraq Azərbaycanın Milli Qəhrəmanları haqqında araşdırma aparıb təqdimat hazırlamaq tapşırıldı.

Zəng vuruldu, ikinci saat riyaziyyat dərsi olacaqdı. Saday isə hələ də ədəbiyyat dərsinin təsirindən çıxa bilməmişdi. Onun xəyalında illər öncə məktəb həyətində baş vermiş bir hadisə canlandı.

* * *

Payızın nəfəsi duyulurdu. Artıq günəşin şüaları zəifləmiş, hava sərinləmişdi. Yaydan qollu-budaqlı çıxmış ağaclar yarpaq-yarpaq soyunduqca

yuxuya getməyə hazırlaşan torpağın üstünə qalın qızılı yorğan çəkilirdi. Ayaq altında xırçıldayan xəzəllərin səsi torpağın yuxusunu qaçırırdı. Məktəb həyətində sıra ilə əkilmiş nar ağacları meyvəsinin çoxluğundan başını aşağı əyərək sanki gələnləri qarşılayırdı.

Məktəbin həyəti uşaqla doluydu. Bu gün ilk dərs günü idi. Üçaylıq tətildən sonra məktəb yenə öz şagirdlərinə qoynunu açmış, onları doğma balası kimi bağrına basmışdı.

Sadayın hələ 6 yaşı tamam olmadığı üçün məktəbə getmirdi. Amma məktəbdə təsərrüfat müdiri işləyən nənəsi Fatma hərdən onu özü ilə məktəbə gətirirdi. Bu gün də o, nənəsi ilə məktəbə gəlmişdi. Ağ köynək geyinmiş uşaqlara baxıb onlara qoşulmaq istəyir, oxuyub-yazmaq, öyrənmək üçün səbirsizlənirdi. Nənəsi ona təsəlli verirdi:

– Bircə ilin qalıb, bala, gələn il bu vaxt sən də şagird kimi məktəbə gələcək, oxuyub-yazmaq öyrənəcəksən.

Bu vaxt ağsaçlı bir kişi onlara yaxınlaşıb nənəsi ilə salamlaşdı. Sonra Sadaya tərəf dönüb mehribanlıqla:

– Adın nədir, balaca? – deyə soruşdu.

Saday adını söylədikdən sonra kişi onun başını sığallayıb dedi:

– Saday, böyüyəndə kim olacaqsan?

– Əsgər! – deyə Saday qətiyyətlə dilləndi. Ağsaçlı kişinin üzündə məğrur bir ifadə göründü:

– Eşq olsun, Azərbaycan əsgərinə! – deyə Sadayı alqışladı. Sonra əlavə etdi:

– Deməli, sən işğalda olan torpaqlarımızı azad edəcəksən.

Saday başı ilə təsdiq elədi.

– Əlbəttə, edəcək, müəllim, biz Sadayların sayəsində əzəli və əbədi torpaqlarımızı geri qaytaracağıq, – nənəsi onun əvəzində dilləndi.

Kişi sağollaşıb gedəndən sonra nənəsi dedi:

– O, məktəbimizin tarix müəllimidir, bir gün sənə də dərs deyəcək. Tarixi yaxşı öyrən ki, haradan gəldiyimizi, kim olduğumuzu bilib düşməni yerinə oturdasan.

* * *

Nənəsi Sadaya tez-tez qədim Azərbaycan torpaqlarından, İrəvandan, Qarabağdan danışırdı. Nənəsi deyirdi ki, indi bizimlə düşmənçilik edən ermənilər keçən əsrdə bizə pənah gətirib, bizə sığınıblar. Biz də ürəyimizin genişliyindən öz ocağımızın başında onlara yer vermişik. Amma zaman keçdikcə bu yerlər onlara darlıq edib, buna qane olmayıblar və daha böyük ərazilərə sahib

olmaq fikrinə düşüblər. Bunun üçün də cürbəcür hiyləyə əl atıb, çirkin əməllər törədiblər. Azərbaycanlıların yaşadığı ərazilərdə müxtəlif iyrənc planlar quraraq onları öz evlərindən çıxmağa məcbur ediblər. Sonradan isə bizimlə müharibəyə başlayıblar, torpaqlarımızı işğal edib, yurddaşlarımızı qətlə yetiriblər. Onlara görə minlərlə soydaşımız yurdlarından didərgin düşüb köçkünlük həyatı yaşayır, oğullarımız şəhid olub, anaları gözüyaşlı qalıb. Saday bunları yaxşı bilirdi. Müharibədən bir neçə il sonra doğulsa da, o dəhşətləri görməsə də, böyüklərin ona danışdıqlarından o faciəni, o ağrıları öz canında hiss edir, uşaq ağlına sığışdıra bilmədiyi sualların cavabını tapmağa çalışırdı. Saday yuxarı siniflərə keçdikcə "Azərbaycan tarixi" fənnindən vətən haqqında daha geniş bilgilər əldə edirdi. İllər əvvəl məktəbin həyətində gördüyü ağsaçlı kişinin – sonralar ona tarix dərsi deyən Ramiz müəllimin danışdıqlarından Azərbaycanın böyük əraziyə malik olmasını, zaman-zaman parçalanaraq kiçik bir hissə qaldığını öyrənmişdi. Bütün bunlar Sadayın kiçik qəlbində mübarizə toxumlarını cücərtmiş, vətən torpaqlarını azad etmək istəyi yaratmışdı. Ona görə də o, tez böyümək, öz arzusunun ardınca getmək istəyirdi.

İradə müəllimin oxuduğu hekayə onun qəlbindəki bu istəyi daha da alovlandırmış, düşmənə qarşı olan qəzəbini daha da artırmışdı.

* * *

– Maşallah, lap bəy kimi görünürsən, – deyə anası Sadayın boyunu oxşadı, – boyuna qurban, ay oğul, ölmədim, məktəbi bitirdiyin günü də gördüm. Sonra xəfif bir təbəssümlə əlavə etdi:

– Hə, indi də qaldı əsgərlikdən sonra sənə toy etmək.

– Ay ana, ona hələ var, tələsmə, – deyib Saday anasının boynunu qucaqlayıb üzündən öpdü.

– Mənim qardaşım hamıdan yaraşıqlıdır, bu gün bu yaraşıq bir az da artıb, – bacısı Gülmirə qardaşına qısıldı.

Saday isə cavabında:

– Gör o kimin qardaşıdır?! – bacısını köksünə sıxdı.

Həyətdən yoldaşlarının Sadayı çağırdığını eşidən atası bu söhbəti yarımçıq kəsməyə məcbur oldu:

– Yaxşı, indi icazə ver, uşaq getsin, dostları onu gözləyir, – Rza kişi yoldaşına dedi.

Saday son dəfə güzgüdə özünə baxıb, saçına əl gəzdirdi, stolun başına keçirdiyi pencəyini gö-

türüb, sağollaşaraq həyətə qaçdı.

– Şükür bu günə, ya Rəbbim, – deyə Məhəbbət ana əllərini açıb, Allaha dua etdi.

Evin sonbeşiyi idi Saday. O, 1998-ci il mart ayının 1-də Ordubad rayonunun Darkənd kəndində doğulmuşdu. Onun gəlişi ailə üzvlərini çox sevindirmişdi. Uşağa babasının adı verildiyindən hər kəs onu "qaqaş" deyə çağırırdı. Çox mehriban, istiqanlı, qayğıkeş uşaq idi. Qohum-qonşu tərəfindən də öz bacarığı, şirinliyi ilə sevilirdi. Bibisi uşaqları ilə bir həyətdə böyüyən Sadayı hamı qardaşı kimi sevirdi. Kimin nə işi olurdusa, gedib kömək edirdi. Böyüklərə hörmət edir, kiçiklərə qayğı ilə yanaşırdı. Bacısı Gülmirə ondan beş yaş böyük idi. Amma Saday böyüdükcə bacısının qayğısına qalmalı, onu qorumalı olduğunu anlayır, onun hər çətinliyində köməyinə yetirdi. Bacı da qardaşın himayəsində özünü güvənli, rahat hiss edirdi. "Heç bir çətinlikdən qorxmuram, çünki qəhrəmanım yanımdadır",– deyə öyünürdü. Ata-ana onların bu mehribanlığına baxıb fərəhlənirdi.

* * *

Bu gün onbirincilərin məktəblə vidalaşdığı gün idi. Bu gün onlar üçün son dəfə məktəb zəngi çalınacaq və onlar doğma məktəblərindən ayrılacaqlar. Bu gündən onların yolları da ayrılacaq, həyatları da dəyişəcəkdi. Hər kəs öz seçdiyi yolla gedəcək, xəyalında qurduğu işlə məşğul olacaqdı.

Saday da öz yolunu seçmişdi, onun niyyəti artıq ailəsinə də bəlli idi. O, hərbi xidməti bitirdikdən sonra hərbi məktəbə daxil olmaq, hərbi sirlərə dərindən bələd olmaq, yüksək təlim keçərək düşmənlə mübarizədə qalib gəlmək istəyirdi. Bu istəyini hələ 11-ci sinfə keçəndə ailə üzvlərinə bildirmişdi. Etiraz edənlərdən biri də nənəsi olmuşdu. Uşaqlıqdan nəvəsini əzizləyə-əzizləyə böyüdən, bir sözünü iki etməyən, naz-nemətlə böyüdən nənə hərbi sahənin necə çətin olduğunu bildiyindən sevimli nəvəsinin bu əziyyətlərə qatlaşmasını istəmirdi. Ona görə də Sadayın bu fikrinə qarşı çıxaraq demişdi:

– Ay oğul, sən bu yaşına kimi bir çətinlik görmədən böyümüsən. İndi aylarla, illərlə bizdən necə uzaq düşəcəksən?

Saday isə nənəsinə belə cavab vermişdi:

– Nənə, axı sən özün hər dəfə mənə bu haq-

da danışmısan, məni bu ruhda böyütmüsən. Mən sənin danışdıqlarına və gözümün önündə baş verənlərə necə göz yuma bilərəm? Ermənilərin Xocalıda törətdiklərini, Başlıbel faciəsini, hər gün gələn şəhid xəbərlərini necə unuda bilərəm? İşğalda inləyən torpaqlar bizdən imdad diləyir, köçkün düşən bacı-qardaşlarımız bizə ümid edir. Axı bu vətən bizə əmanətdir, biz onu qorumasaq, kim qoruyacaq?

Bu qəlb titrədən sözlərdən sonra nənənin deməyə sözü olmamış, razılaşmaqdan başqa çarəsi qalmamışdı. Nəvəsinin həqiqət dolu sözlərindən sonra nənə yaylığının ucu ilə gözlərinin yaşını qurulamış, Sadaya xeyir-dua vermişdi. Bu gündən artıq Saday şıltaq uşaqlıq həyatı ilə vidalaşıb cəsur əsgər həyatına başlayacaqdı.

* * *

Məzunlardan biri son zəngi ifadə edən simvolik zəngi çala-çala həyətin ortasında dövrə vurub yerinə qayıtdı. Əvvəlcə məktəbin direktoru Təvəkkül Məmmədov sözə başladı:

– Əziz məzunlar, bu gündən siz müstəqil həyata qədəm qoyursunuz. Bu gündən sizin həyatınız özünüzün qərar verdiyiniz, seçdiyiniz istiqamətdə davam edəcək. Çalışın, həyat yolu-

nuzu elə seçin ki, sonradan peşman olmayasınız. Ali məktəbə sənəd verənlər öz ixtisasına, sənət öyrənmək istəyənlər öz sənətinə yiyələnəcəklər. Hansı sahədə çalışmağınızdan asılı olmayaraq, hər zaman öz işinizdə şərəflə, vicdanla çalışın, millətimizə, vətənimizə layiqli vətəndaş olun, – deyib bir qədər nəfəsini dərdi, sonra davam etdi:

– Bilirsiniz ki, 25 ildir torpaqlarımız düşmən işğalındadır. Yurdu azad etmək üçün igidlər bircə əmri gözləyir. O əmr gəldiyində hər kəs səfərbər olub vətən torpaqlarının azadlığı uğrunda mübarizəyə qalxacaq. Artıq siz də bir əsgərsiniz! Bu günün əsgəri! Bu torpaqları azad etmək sizin taleyinizə düşən şərəfli bir işdir. İnanıram ki, bu vəzifəni layiqincə yerinə yetirəcəksiniz! Çünki siz elə bir məmləkətdə yaşayırsınız ki, vətəniniz mühasirə şəraitindədir. Bu da məhz mənfur düşmənlərin torpaqlarımıza göz dikməsinin, ərazilərimizi zəbt etməsinin nəticəsidir. Yaxın tarixdə bağlanmış müqavilələrə görə böyük Azərbaycanın hissələrə bölünməsi, parçalanması, sonradan işğal olunması Naxçıvan torpağından da yan keçməyib, bir çox ərazilər işğal olunub. Bizim Qarabağ müharibəsində döyüşən, yaralanan, itkin düşən, şəhid olan onlarla əsgərimiz var. Onların qanını almaq vəzifəsi sizin üzərinizə düşür. Vətən tor-

pağının müdafiəsində ayıq-sayıq durun, onu göz bəbəyiniz kimi qoruyun!

Sonra məktəbin müəllimləri və şagirdlər çıxış etdilər. Saday öz növbəsində birinci sinifdə keçirilən əlifba bayramında dediyi "Vətən" şeirini bu gün də səsləndirdi.

*Elim-obam tamaşa,*
*Nəğməsən başdan-başa.*
*Qəhrəman yurdum yaşa,*
*Şərəfim, şanım yaşa!*
*Azərbaycanım yaşa!*

*Bərəkətli torpağım,*
*Tarlam, bostanım, bağım,*
*Mənim sevinc bulağım,*
*Zəfər dastanım yaşa!*
*Azərbaycanım yaşa!*

Bu şeir on bir il ərzində Sadayın yalnız dilində deyil, eləcə də, beynində, qəlbində, ruhunda dolaşmış, misra-misra qanına hopmuşdu...

* * *

Hərbi komissarlığın həyəti adamla dolu idi. Valideynlər, qohumlar, dostlar hərbi xidmətə gedənləri yola salmağa gəlmişdilər. Analar, atalar öz oğullarını nigaran baxışlarla süzsələr də, gənc əsgərlərin üz-gözü sevincdən parlayırdı. Onlar vətəni qorumaq kimi müqəddəs bir vəzifənin dalınca getdikləri üçün çox qürurlu idilər. Hər biri ürəyində onların xidməti dövründə müharibənin başlanmasını, torpaqların azad edilməsində onların da payının olmasını arzulayırdı.

Saday valideynləri ilə görüşüb onlardan ayrıldı. Yol çantasını çiyninə atıb onlar üçün ayrılmış maşına tərəf addımladı. Arxadan anasının səsini eşitdi:

– Özündən muğayat ol, bala, yeməyinə-içməyinə fikir ver, özünü soyuğa vermə.

Saday onun sözlərinə geri çevrilib gülümsədi, başını razılıq əlaməti olaraq tərpətdi. Sonra öz-özünə gülüb dedi: “Ana ki ana! Elə bil məni istirahətə yola salır”.

İkiillik əsgərlik həyatı Sadaya çox şey öyrətdi. Burada xüsusi təyinatlı kimi qulluq edən Saday hərbi biliklərlə yanaşı, şəxsi keyfiyyətlərə də yiyələndi, dözümlü, iradəli olmağı, çətinliklərdən əzmlə çıxmağı öyrəndi. Amma Sadayın bir hədəfi

var idi, o da Qarabağı azad etmək idi. Buna görə də həqiqi hərbi xidməti başa vurduqdan sonra müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi vətənə xidmətini davam etdirmək istədi. Bir müddət sonra sənədlərini hərbi məktəbə verdi. Lakin onun sənədlərini qəbul etmədilər. Səbəb kimi səhhətində yaranmış problemi göstərdilər. Amma Saday yolundan dönmədi, müalicə aldıqdan sonra qəbul üçün yenidən müraciət etdi və istəyinə çatdı.

Onun hərbi sahədə çalışmaq istəyi ailə üzvləri üçün heç də təəccüblü deyildi. Çünki Saday uşaqlıqdan bu amalla böyümüşdü. Hərbi xidmətdən sonra yaxın adamları tərəfindən ona bir çox yerlərdə iş təklif edilsə də, Saday hamısından imtina etdi. O yalnız vətənin keşiyində durmaq, onun ərazi bütövlüyünü bərpa etmək istəyirdi. Rusiyada işləmək təklifinə isə belə cavab vermişdi: “ Ölkəmiz müharibə şəraitində yaşayır, gec-tez Qarabağın azad olunması  üçün döyüşə atılacağıq. Vətənimin mənə ehtiyacı olan zamanda mən başqa ölkədə rahat yaşaya bilmərəm. Onun harayına yetməliyəm.”  Bu, elə güclü bir istək idi ki, onun qarşısında heç kim dura bilmədi.

Saday xidməti dövründə təşkil edilən müxtəlif təlimlərdə iştirak etdi. Hər keçirilən təlim onu

bir az da gücləndirir, özünə olan inamını artırırdı. Qatıldığı bütün təlimlərdən uğurla çıxır, iştirak etdiyi bütün yarışlarda birincilik qazanırdı. Dəfələrlə komandanlıq tərəfindən fəxri diplom və mükafatlara layiq görülən Saday hər dəfə bu sözü deyirdi: Vətənə xidmət edirəm! Məzuniyyətə gəldiyi vaxtlarda yoldaşları, dostları onun başına yığışır, ölkədə baş verən hadisələrdən danışırdılar. Saday hər zaman ordunun gücündən, əsgərlərin hünərindən, zabitlərin peşəkarlığından ağızdolusu söz açırdı. Həmişə deyirdi ki, indi 30 il əvvəlki zaman deyil, indi nəinki erməni, heç kəs bizim qarşımızda duruş gətirə bilməz. Bircə hücum əmri verilsin, onda görün bizim necə igidlərimiz var.

Sadayın bütün bu hazırlıqları o böyük gün üçün idi. O inanırdı ki, gün gələcək, vətən torpaqlarının azad olunması üçün hamı bir nəfər kimi birləşəcək, hər kəs onun müdafiəsinə qalxacaq. Bunlar bizim əzəli torpaqlarımızdır, onu yad ayaqda qoymaq alnımıza yapışmış ləkə olar.

2016-ci ildə baş vermiş aprel döyüşündəki zəfərimiz yanan qəlbləri bir balaca sərinlətdi. Beşgünlük müharibədə geri qaytardığımız ərazilər böyük qələbədən xəbər verirdi. Həmin vaxt Saday kəşfiyyat kursunda təlim keçdiyindən bu

döyüşdə iştirak edə bilmədi. Lakin özünü bütün ruhu ilə həmin döyüşdə hiss edirdi. Geri alınan yüksəkliklərin sevincini yaşayaraq özünü böyük qələbəyə hazırlayırdı.

2020-ci ilin 12 iyulunda düşmən növbəti dəfə təxribata əl atdı. Tarixə "Tovuz döyüşləri" adı altında düşən bu döyüş Ermənistan-Azərbaycan dövlət sərhəddinin Tavuş mərzi və Tovuz rayonu əraziləri boyunca başlamışdı. Ermənistan Silahlı Qüvvələri atəşkəsi kobudcasına pozaraq Azərbaycan Ordusunun mövqelərini atəşə tutdu. Gün ərzində mövqelərimizi iriçaplı silahlardan və ağır artilleriyadan atəşə tutan düşmənin təxribatının qarşısı alındı və dayaq nöqtələri, onlarla hərbi qulluqçusu məhv edildi. Tovuz istiqamətində olan bu gərginlik iyulun 13-nə keçən gecə də davam etdi. Cavab atəşi ilə susdurulan düşmən çoxlu sayda zirehli və canlı qüvvəsini itirdiyini gizlətməyə çalışdı. İyulun 14-də düşmən Tovuzun Ağdam və Əlibəyli kəndlərini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə tutdu. Bu təxribat nəticəsində Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov, polkovnik İlqar Mirzəyev, həmçinin, 5 hərbi qulluqçu şəhid oldu.

İyulun 15-də səngiyən döyüşlər iyulun 16-da yenidən başladı və həmin gün Azərbaycan Or-

dusunun bir hərbi qulluqçusu şəhid oldu. Tovuz döyüşləri iyulun 17-də Azərbaycan Ordusunun qələbəsi ilə yekunlaşdı və heç bir ərazi itkisi olmadı. Bu döyüşlərdə Azərbaycan Ordusunun 12 hərbi qulluqçusu – general Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Anar Novruzov, mayor Namiq Əhmədov, baş leytenant Rəşad Mahmudov, gizir İlqar Zeynallı, gizir Yaşar Babayev, çavuş Vüqar Sadıqov, baş əsgər Elşad Məmmədov, əsgər Elçin Mustafazadə, əsgər Nazim İsmayılov, əsgər Xəyyam Daşdəmirov şəhid oldu. Və bu döyüş böyük zəfərə gedən yolun başlanğıcı oldu…

Polad Həşimovun şəhadəti ilə dolan səbir daşdı, boğulan qəzəb kükrədi, yığılan nifrət püskürdü. Bu hadisə son həddin çatdığını göstərdi – artıq vaxt idi! İşğalda inləyən torpaqları azad etmək vaxtı çatmışdı, daha gözləmək olmazdı. İllər idi, bir xalqın qüruru tapdalanır, dəyərləri ayaqlar altında əzilirdi. İndi bütün bunların hesabını soruşmaq, haqq-hesab çəkmək vaxtı idi.

Düşmən isə özünə arxayın halda yerini bərkidib oturmaqda idi. Otuzillik işğaldan sonra Azərbaycan xalqının yenidən birləşəcəyini, haqqı olana sahib çıxmaq üçün ayağa qalxacağını gözləmir, bunun baş verə biləcəyinə inanmırdı. Amma

tarixin savaşlarından alnıaçıq, üzüağ çıxan Azərbaycan bunu da bacaracaqdı! Öz əzəli torpaqlarını geri qaytarıb sərhədlərini möhkəmləndirəcək, tarixi gücünü bərpa edəcəkdi.

2020-ci il, sentyabrın 26-dan 27-nə keçən gecə. Bu, həmin o gecə idi ki, səhəri həmişəkindən fərqli açılmışdı, insanları yuxularında 30 il gördüklərindən fərqli Qarabağ görmüşdülər. Bu, həmin o gecə idi ki, səssizliyi ürək çırpıntıları fonunda itmişdi, qaranlığı ümidlərin işığında yox olmuşdu. Bu, həmin o gecə idi ki, vətən keşiyində dayanan igidlər sabahı səbirsizliklə gözləyir, analar səhərə qədər yatmayıb onlara dua edirdilər. Bu, alınların bir qərinəlik ləkəsini silən, vətən övladlarını başıdik gəzməyə müvəffəq edən, qürurunu, mənliyini özünə qaytaran gecə idi! Bu, tarixi qələbəyə yol açan həmin gecə idi! 44 günlük Zəfər fəslinin başlandığı gecə! O gecədən Azərbaycanın qəhrəmanlıq salnaməsinin daha bir səhifəsi yazılmağa başladı.

* * *

Ölkə səhəri dəhşətli xəbərlə açdı: Müharibə başlayıb! Bütün telekanallar bu haqda xəbər verir, hamı bundan danışırdı. Qəribəsi də o idi ki, hər kəs bu xəbərə sevinirdi. Bu, görünməmiş bir

hadisə idi. Adətən, müharibə başlayanda əhali təşvişə düşər, narahatlıq keçirər, ruhu sıxılardı. Azərbaycan xalqı isə bu xəbərə yalnız sevindi. Yer üzündə bəlkə də yeganə xalq idi ki, müharibə xəbərini bayram kimi qarşılayırdı. Çünki o öz igidlərinin gücünə bələd idi, öz oğullarının cəsarətinə inanırdı. Xalq bilirdi ki, bu müharibə onların həsrətinə son qoyacaq. Bu günü onlar çoxdan gözləyirdilər.

Azərbaycan əsgərləri döyüşə atıldığı ilk günlərdən öz gücünü düşmənə göstərdi. Elə ilk hücumlardan işğalda olan bir neçə ərazi azad olundu. Düzdür, düşmən otuz il ərzində sakit oturmamışdı, zəbt etdiyi torpaqlarda güclü müdafiə xətti qurmuş, möhkəm istehkamlar düzəltmişdi. Amma otuz il ərzində güclənmiş Azərbaycan Ordusu bütün bu maneələri aşıb keçməyə müvəffəq oldu. Bir-birinin ardınca azad olunan kəndlər, rayonlar, yüksəkliklər xalqa misilsiz sevinc bəxş edir, onlara böyük qələbədən xəbər verirdi.

Müharibənin ilk günündə Füzulinin 4, Cəbrayılın 2 kəndini azad edən Azərbaycan Ordusu növbəti günlərdə bu ərazilərin sayını artırdı. Artıq oktyabrın 4-də Cəbrayıl rayonu və bir çox ərazilər işğaldan azad olunmuşdu.

Düşmən ordusunda çaşqınlıq yaranmışdı. İtirdikləri hərbi və canlı qüvvə onları qorxuya salmışdı. Belə getsə, nəinki Qarabağı, hətta İrəvanı da itirəcəklərini düşünüb üzüntü içində məhv olurdular. Artıq düşmən ölkədə hamı bir-birinə dəymişdi. Hərb sahəsində Azərbaycan əsgərinə bata bilməyən düşmən çıxış yolunu informasiya müharibəsində gördü. Hər cür yalan, əsası olmayan məlumatlarla internet üzərindən basqı etməyə başladı. Müxtəlif Azərbaycan adları altında hesablar açıb insanlarla sosial əlaqəyə girməyə, onların qəlbinə nifaq toxumu səpməyə cəhd etdi. Amma əhali buna aldanmadı. Düşmən bu xalqın iradəsini qıra bilmədi. Xalqı psixoloji təzyiqə məruz qoyaraq ruhdüşkünlüyü yaratmaq, mənən məhv etmək istəyi baş tutmadı. Əksinə, xalq daha da birləşdi, bir-birindən daha sıx yapışdı. Ön cəbhədə əsgərlərə mənəvi dayaq olub onları tək qoymadı. Əsgər arxada onu gözləyənlərin olduğunu biləndə daha inamla döyüşür, daha cəsarətlə qələbəyə doğru addımlayır.

Azərbaycan əsgərinə döyüş meydanında qalib gələ bilməyən, xalqın birliyini poza bilməyən düşmən bu dəfə növbəti təxribata əl atdı. Cəbhədən kənar bölgələrdə dinc əhalini hədəfə aldı. Gəncə, Bərdə, Ağcabədi, Tərtər rayonlarında terror törə-

dib günahsız insanların qətlinə səbəb oldu. Həlak olanların içində azyaşlı uşaqlar, atalar, analar var idi. Heç yerdə belə dəhşət görünməmişdi. O gecə erməni quldurlarının atdığı bombalar neçə ömrü yarımçıq qoydu, neçə ailənin ocağını söndürdü...

* * *

Bu il payız da sanki gəlməyə geçikirdi. Ağaclar öz yaşıl donunu soyunsa da, günəş hələ hərarətini saxlamışdı. Zəif şüalarını solmuş çəmənlərdə gəzdirir, kövrək xəzəllərin ruhunu isidirdi. Küləklər qayaların arxasında gizlənmiş, yağışlar buludların gözündə saxlanmışdı ki, haqq yolunda döyüşənlərin yolunda maneə olmasın. Bu, təbiətin əsgərlərə bir lütfü idi.

Saday müharibənin ilk günlərindən döyüşə getməyə can atsa da, ona "hələ zamanı deyil" deyib saxlayırdılar. O özü də yaxşı bilirdi ki, ordunun sütunu sayılan Xüsusi Təyinatlı Qüvvələrin əsgərlərini ən çətin məqamlarda döyüşə göndərirlər. Bilirdi ki, onları da döyüşə aparacaqlar. Amma yenə də səbirsizlənir, düşməni məhv etmək üçün tələsirdi.

Saday hərbi hissədə yenicə işə düzəlmişdi. Artıq vətənin müdafiəsində dayanmaq üçün onlarla

əsgərə təlim keçir, öyrəndiklərini onlara da öyrədirdi.

Oktyabrın 10-u idi. O, gecə işdən evə gəldi. Yorğun görünürdü. Anasının onun üçün hazırladığı yeməyi iştahla yedi. Son tikəsini çeynəyib uda-uda:

– Anamın yeməyindən yoxdur da! Dünyanın ən dadlı yeməyini mənim anam bişirir,– deyə anasını qucaqladı. Ana da oğluna qısıldı. Onun ətrini ciyərlərinə çəkdi. Özü də bilmədən kövrəldi, gözləri doldu. Amma istəmədi ki, oğlu onun göz yaşlarını görsün. Saday anasını ağlayan görmək istəmirdi. Həmişə deyirdi: "Hərbçi anası mətin olar! Göz yaşlarını heç vaxt axıtma". Ana bu sözləri xatırlayıb qəhərini uddu, birtəhər göz yaşlarını boğub oğlunun boyunu qürurla oxşadı.

Atası Sadaya müraciətlə:

– Cəbhədən nə xəbər var, ay oğul? Deyir, bizimkilər onların axırına çıxır,– deyə bu sevindirici xəbərləri oğlunun dilindən eşitmək istədi.

Saday atasına hərbi sirləri deməsə də, hamının bildiyi ümumi məlumatlardan danışdı:

– Əlbəttə, onları məhv edəcəyik, utanmazcasına gəlib oturublar torpağımızda, zəbt ediblər ərazilərimizi, biz onları sərbəstmi buraxacağıq?

Sonra qürurla əlavə etdi:

– Hər gün yeni-yeni ərazilər azad edilir, belə getsə, bir aya Qarabağ bizdədir.

– Təki elə olsun, ay oğul, Allah kömək olsun əsgərlərimizə, – deyə ata əllərini göyə açıb dua etdi. Sonra boğazını arıtlayıb aramla soruşdu:

– Bəs səni nə vaxt aparırlar?

– Hələ dəqiq bilinmir, ata, amma aparmalıdırlar, gözləyirik, – deyə Saday astadan dilləndi, – Deyəsən, heç bizə vaxt olmayacaq, igidlər onlara aman vermir.

Rza kişi kədərli halda dedi:

– Amma nə qədər şəhid veririk, bu torpaqlar şəhid qanı ilə geri qaytarılır, indi bizim üçün daha müqəddəsdir.

– Qələbə qurbansız olmur, ata. Bu qardaşlar bizim üçün qanlarını töküb, rahatlığımız, azadlığımız, başıdik, alnıaçıq gəzə bilməyimiz üçün canlarından keçib, onların yeri hər zaman qəlbimizdədir. Allah bütün şəhidlərə rəhmət eləsin! – dedi Saday.

– Ruhları şad olsun! Rza kişi hüznlə dua etdi.

Səhər Saday oyananda artıq anası qalxmış, onun üçün süfrə hazırlamışdı. Sadayın çox sevdiyi sarı çəkmələrini silib təmizləmiş, onun rahat geyinə bilməsi üçün cütləyib qapının ağzına qoymuşdu. Saday yuyunub süfrəyə oturdu, bir tikə

çörək yedi. Sonra sağollaşıb evdən çıxdı. Anası onu yola salmaq istəyəndə Saday onun qapıya qədər gəlməsini istəmədi:

– Narahat olma, ay ana, özüm gedəcəyəm, gəlmə dalımca, sən keç evə, – deyib anasından geri qayıtmasını istədi.

– Ay Məhəbbət, oğlun yekə kişi oldu da, sən yenə onunla uşaq kimi davranırsan, rahat burax uşağı, – Rza kişi arvadını qınadı.

Ana bir söz demədən eyvandan durub oğlunun dalınca baxdı. Saday geri dönüb anasına əl elədi. Nədənsə anaya elə gəldi ki, oğlunu bir daha görməyəcək, sanki onun ürəyinə dammışdı ki, bu, Sadayın son gedişidir. Birdən nə düşündüsə, arxadan onu səslədi:

– Sadaaay! Bala, bir dəqiqəlik ayaq saxla, – deyib tələsik həyətə çıxdı. Oğlunun ardınca qaçıb ona çatdı. Bağrına basıb üzündən-gözündən bərk-bərk öpdü, doya-doya qoxladı. Saday anasının hərəkətindən təsirləndi, amma özünü o yerə qoymadı. O, müharibəyə yollandığını evdə deyib ailəsini narahat etmək istəməsə də, ana ürəyi bunu hiss etmişdi. Ana balasından ayrılmır, onu getməyə qoymurdu. Saday bu məhəbbətin qarşısında lal durub dayanmış, anasını bağrına basıb durmuşdu. Nəhayət, özünü toparlayıb anasını

özündən ayırdı, dolmuş gözləri ilə ona baxıb:

– Narahat olma, ana, hər şey yaxşı olacaq, – deyib geri döndü və iti addımlarla oradan uzaqlaşdı. Ana oğlunun sevimli sarı çəkmələrindən çıxan səs itincə dayanıb onun ardınca baxdı.

Hava limanına gələn Sadayı burada dostları gözləyirdi. Onu döyüşə yola salmağa gəlmişdilər. Saday bu gün vətən torpaqlarının azadlığı üçün cəbhə bölgəsinə yollanırdı. Artıq illərlə öyrəndiyi təcrübəni döyüş meydanında düşmənə qarşı tətbiq edəcəkdi. Təyyarəyə minəndə dostu Təbrizə dedi:

– Evdə heç nə demədim, istəmədim məndən nigaran qalsınlar. Bax sən də heç nə demə, heç nə bilməsinlər. Özüm tez-tez evlə əlaqə saxlayacağam. Onsuz da bir şey qalmayıb, tezliklə zəfərlə evə dönəcəyəm.

– Allah vuran qolunu, yürüyən ayağını titrətməsin, qardaş, allah dayağın olsun,– deyə Təbriz onu xeyir-dua ilə yola saldı.

Yol boyu düşünürdü. Nənəsinin uşaqlıqdan ona danışdıqları, böyüdükcə özünün öyrəndikləri, bildikləri düşüncəsində dərin iz buraxmışdı. Hər dəfə təlimlərdə iştirak edəndə düşmən üzərinə hücum edəcəyi günü səbirsizliklə gözləyirdi. Onların etdiklərinin cavabsız qalmayacağını bilir-

di. Gün gələcəkdi, vətən torpağının hər qarışını öz qeyrəti bilən oğullar düşməndən əməllərinin hesabını soracaqdı.

O gün bu gün idi! İndi Saday da bu müqəddəs işdə igid qardaşları ilə birlikdə mübarizə aparacaqdı. Amma evdə heç nə deməmişdi. Ata-anasının narahat olmasını, ondan nigaran qalmasını istəmirdi. Onsuz da valideynləri hər yaralı üçün üzülür, hər şəhid üçün göz yaşı tökürdülər.

Yolda bibisi qızı Aytənə zəng vurdu. Müharibəyə getdiyini yalnız ona deyə bilərdi.

– Aytən, biz döyüşə gedirik, yoldayıq, artıq Culfadan çıxmışıq, amma evdə bilmirlər. Anamgilə demədim, sən də demə.

– Qaqaş, Allah dayağınızda dursun, sağ gedib, salamat qayıdasınız.

– Özünüzdən muğayat olun, anamgil sizə əmanət, Aytən.

– Allah qorusun, inşaallah, tezliklə qələbə xəbəri ilə qayıdasan, – Aytən dua etdi.

İlk döyüşü Füzuli rayonu uğrunda oldu. İlk hücumlardan bir neçə yüksəklik və ərazi işğaldan azad edildi. Aldığı hər tapşırığı uğurla yerinə yetirən Saday bu cəsarəti və bacarığı ilə yoldaşlarını döyüşə daha da ruhlandırırdı. Onunla birlikdə döyüşən silahdaşları həmişə Sadayı bir addım

özlərindən öndə görürdülər. O, bu illər ərzində düşmənə qarşı cücərtdiyi nifrəti bir anda püskürməyə hazır idi. Özündə onları təkbaşına məhv edəcək qədər güc hiss edirdi. Amma yenə də hərb qanunlara riayət etməkdən başqa çarəsi qalmırdı.

Füzulidən sonra Xocavənd və Cəbrayıl rayonu uğrunda döyüşlər başlandı. Bu vaxt artıq Naxçıvandan ikinci qrup cəbhə xəttinə göndərilmişdi. Dostu və iş yoldaşı Ramazanla birlikdə döyüşlərə qatılması Sadaya sanki əlavə qüvvət verirdi. Birlikdə döyüşərək bir çox ərazi və yüksəkliklərin azad edilməsində iştirak etdilər. Tapşırıq əməliyyatını yerinə yetirdikdən sonra öz mövqelərinə çəkilir, arzuları, xəyalları barədə söhbət edirdilər.

– Deyirəm, indi biz bu çaqqalları qovub qələbə qazanacağıq, buradan da qalib əsgər kimi evə dönəcəyik də, elə deyil?

– Hə, elədir, – dostu onun sözünün sonunu maraq etdiyindən tələsik dilləndi.

– Deyirəm, indi biz kəndə dönəndə qəhrəman kimi dönəcəyik, kəndin cavanları əlində bayraq bizi qürurla qarşılayacaq, uşaqlar qabağımıza qaçıb bizə heyrətlə baxacaq, yaşlılar bizi alqışlayacaq, – deyib gülümsədi, – zarafat deyil e, otuz ilin həsrətini ürəklərdən silmişik, torpaqlarımızı düşmən tapdağından qurtarmışıq.

– Hə, sənin möhtəşəm təsviretmə bacarığın var, gözəl mənzərə cızırsan göz önündə, – deyə Ramazan əlini onun kürəyinə vurdu,– inşaallah, tezliklə o böyük günün sevincini yaşayarıq.

– Amma, – deyə Saday birdən qayğılı halda dilləndi: – müharibədir, hər şey ola bilər, hər şeyə hazır olmaq lazımdır. Düzdür, bura öldürməyə gəlmişik, amma şəhid olmaq kimi şərəfli bir yol da qaçılmaz deyil.

– Bu haqda çox düşünmə, sən qələbəyə köklən, alnımıza nə yazılıb, onu da görəcəyik, – Ramazan onu belə düşüncələrdən uzaqlaşdırmaq istədi.

– Sən ailəlisən, inşaallah, sənə heç nə olmaz, mənsə subay adamam, bircə anamdan nigaranam, mənə bir şey olsa, o neyləyər? – qayğılandı, sonra əlavə etdi: – Çoxdandır evlə də əlaqə saxlamıram, yəqin narahatdırlar, gərək imkan düşən kimi zəng edim.

Oktyabrın 24-ü səhər saat 8-də Saday Aytənə zəng vurdu. Müharibədə qazandıqları zəfər barədə xəbər verdi:

– İtirilən torpaqları bir-bir geri qaytarırıq. Artıq Şuşaya girmək üzrəyik. Şuşa ilə aramızda bir neçə kilometrlik məsafə var. Təsəvvür edir-

sən, bu necə möhtəşəm duyğudur?! Buralar elə gözəldir ki!

Onun səsindəki həyəcanqarışıq sevinc aydın hiss olunurdu.

– Qaqaş, sən heç anadan olmamışdın, o torpaqlar işğal altına düşmüşdü. Allahın qismətidir, indi sən gedib o torpaqlarda tarix yazırsan. Sən bizim fəxrimizsən! – deyə Aytən onunla qürur duyduğunu bildirdi, sonra əlavə etdi: – Müharibədən sonra gəlib bizi də apararsan oralara.

– Hə, hamımız, bütün xalqımız gəlib gəzəcək bu yerlərdə, – Saday inamla cavab verdi, sonra dedi:– İndi telefonu anagilə apar, onlarla da danışım.

Çoxdandır oğlundan xəbər almayan anaya bu zəng dərman kimi gəldi. Sadayın səsini eşidəndə gözlərinə işıq, dizlərinə təpər gəlirdi.

– Hardasan, necəsən, ay bala? Zəng-zad da eləmirsən. Nigaran qalırıq axı. Necəsən? Yaxşısanmı? Bir yerin ağrımır ki? Düzün de, oralar soyuq deyil ki? – anası Sadayı sorğu-suala tutdu. Saday anasının narahatlığını görüb tez dilləndi:

– Yaxşıyam, ana, məndən nigaran qalmayın. Müharibədir də, soyuğu, istisi var, amma mən yaxşıyam. Düşməni gəldiyi yerə kimi qovub evə dönəcəyəm.

– Başına dönüm, ay oğul, özündən muğayat ol. Tez-tez zəng elə, bizi xəbərsiz qoyma.

– Atama salam de, tezliklə görüşərik, – deyib Saday telefonu söndürdü.

* * *

Artıq noyabr ayı idi. Müharibə başlayandan Azərbaycan Ordusu xeyli ərazisini işğaldan azad etmişdi. Amma Şuşa hələ işğalda idi. Şuşasız qələbə ola bilməzdi. Qarabağda zəfər çəngisi Şuşa azad olunduqdan sonra çalına bilərdi.

Noyabrın 3-də Sadaygilin qrupu Laçın dəhlizinin götürülməsində iştirak etdi. Bu dəhliz vasitəsilə düşmən hərbi texnikalarla təmin olunurdu. Bu yol Azərbaycan Ordusunun nəzarəti altına keçdikdən sonra düşmənin gediş-gəliş yolu bağlandı. Saday və yoldaşları düşmənin xeyli hərbi qüvvəsini məhv edib dəhlizi tutdular.

Qırmızı Bazar istiqamətində bəzi kəndlər və yüksəkliklər azad edildikdən sonra Şuşa şəhərinə girmək tapşırığı alındı. Bu möhtəşəm xəbərin sevincini illərlə bu anı gözləyənlər daha yaxşı bilər. Şuşa! Əbədi alınmaz qala! Mədəniyyət beşiyi! Qarabağın ürəyi Şuşa! Bu anın həsrətini neçə illərdir çəkirdi Saday. Şuşaya ayaq basmağı necə arzu edirdi?! İnanırdı ki, gün gələcək o, bu müqəddəs

torpağı ziyarət edəcək.

Budur, indi bu istəyi həyata keçirmək üçün əsl məqam yetişib. Artıq bir zamanlar əlçatmaz görünən xəyallar gerçəkləşmişdi. Verilən tapşırığı yerinə yetirmək üçün komandası ilə birlikdə əməliyyat planı hazırlamağa başladı.

Sabah ağır gün olacaqdı. Səhərə yaxın onlar Şuşaya daxil olacaqdılar. Artıq plan da hazır idi. İndi dincəlmək, istirahət etmək lazım idi. Saday yatmazdan öncə çantasını açdı, oradan bir dəftər çıxarıb vərəqlədi. Bu dəftərdə müxtəlif qeydlər, maraqlı yazılar, bir çox rəsmlər var idi. Xoşladığı şeir və hekayələri bu dəftərə yazır, boş vaxtlarında oxuyurdu.

Dəftərin arasında gizlətdiyi şəkli götürüb baxdı. Üzünə xoş bir təbəssüm qondu. "Az qalıb, qayıdacağam, Şuşamızı azad edək, ondan sonra qələbə bizimdir", – dedi, sonra pıçıldadı: "Qələbədən sonra biz də bir yerdə olacağıq". Şəkli yenə də dəftərin arasına qoydu.

Saday müharibəyə gəldiyi gündən hər gecə bunu təkrarlayırdı: dəftərin arasında gizlətdiyi şəkillə danışır, ona qələbə vəd edir, görüşəcəkləri günə az qaldığını söyləyirdi. Bu, onun sevdiyi qız idi. Hərbi xidmətdən gələndən sonra ürəyini ona açmış, lakin hələ evlənmək işinin sonraya qalma-

sını istəmişdi. Saday yalnız torpaqları azad etdikdən sonra öz həyatı haqqında düşünə bilərdi.

Sadayın yuxusu gəlmirdi. Sabahkı əməliyyatın məsuliyyəti onu həyəcanlandırırdı. Bu vaxtacan hər əməliyyatdan uğurla çıxmışdı, bunu da bacaracaqdı. Onu həyəcanlandıran Şuşaya qovuşmaq sevinci idi. Nəhayət ki, bu qədim diyara ayaq basmaq ona qismət olacaqdı.

Bu düşüncələr içində dəftərin səhifələrini çevirdi. Bir yazının üstündə dayanıb dərindən nəfəs aldı. "Gəlirik, Şuşam, az qaldı",– deyib dəfələrlə oxuduğu o hekayəni yenidən oxumağa başladı.

## Şuşa həsrəti

*Gözünü açanda özünü yad adamların əhatəsində gördü. Bu insanları ilk dəfə görürdü. Olanları anlamaq üçün ətrafına boylandı. Bütün vücudunu küt ağrı bürüdü – yarpaqları əzilmiş, gövdəsi əyilmişdi. Hər yeri ağrıyırdı. Sanki iri bir əl onu ovcuna alıb suyu çıxanacan sıxmışdı. Ya da nəhəng bir ayaq üstünə çıxaraq onu əzmişdi. Birtəhər gövdəsini dikəldib ətrafına baxdı. Ətraf tüstü-duman içində idi. Torpağın üstündə kökündən qopan, yaşıl saplaqları yerlə bir olan qohumlarını gördü. İçi sızladı. Qarşıdakı qoca palıd ağacına tərəf dartınıb səsləndi:*

*-Palıd baba, axı burada nə baş verib? Bu otlar, çiçəklər niyə məhv olub?*

*Palıd səs gələn tərəfə baxıb bu balaca yarımcan gülü gördü. Dərindən nəfəs alıb ağır-ağır dilləndi:*

*– Xatırlamırsanmı? Bura dəmirəlli, dəmirayaqlı yırtıcılar soxuldu. Onlar ətrafda olan hər şeyi məhv etdilər. Sənin ailən də həmin vaxt həlak oldu. Qalan yalnız bu qoca ağaclardır ki, onların da qol-budağı qırılıb, yanıb külə dönüb.*

*Qoca palıd sözlərini göz yaşları içində bitirdi. Onun sözlərindən gülün bağrı yarıldı, sinəsi od tutub yandı. Sonra yavaş-yavaş olanları xatırlamağa başladı…*

*Yazın gözəl günlərindən biri idi. Qayğısız, şən günlərini yaşayırdı. Ailəsi də yanında idi. Yetişdiyi torpağın göz oxşayan yaşıl düzlərində həyat necə də gözəl idi! Hələ onları sevən, qayğıyla yanaşan mehriban kənd camaatı… Hə, həə, kənd camaatı. Şuşalılar onu çox sevirdi. Qarabağın ürəyi sayılan Şuşanın rəmzi idi o. Şuşayla bir çəkilirdi adı. Özüylə qürur duyurdu.*

*Həmin o dəhşətli gün 10-12 yaşlarında bir qız balaca qardaşının əlindən tutaraq onun yanına gəlmişdi. Hər ikisi ona heyranlıqla baxırdı. Qardaş əlini uzadıb onu torpaqdan ayırmaq istəyəndə bacı həyəcanla onun əlini saxlamışdı:*

*– Yox, yox, dərmə. O, torpaqsız yaşaya bilməz, məhv olar.*

*-Axı mən onu çox sevdim. İstəyirəm otağımda olsun, hər səhər gözümü açanda onu görüm.*

*-Olmaz,qardaşım. O, bu torpaqda gözəldir,– deyə bacı cavab vermiş, sonra qardaşının başını sığallayaraq əlavə etmişdi: -Hər gün gələrik, sən də burada onunla söhbət edərsən.*

*Sonra bacı qardaşına bir rəvayət danışmışdı…*

*Deyilənə görə, bülbüllə gülün böyük sevgisi dillərə düşmüşdü. Buna qarşı çıxan külək kükrəyərək hər yeri vurub dağıdır. Bülbülün yolunu kəsmək üçün var gücünü sərf edir. Amma bülbülü yolundan döndərə bilmir. Bunu görən külək daha möhkəm əsərək zərif gülə təsir etmək istəyir. Onun gücündən nəhəng çinarlar, uca sərvlər əyildiyi halda, bu balaca gül əzmlə dayanaraq küləyə sinə gərir. Külək hiddətlənib daha bərk əsməyə başlayır. Gül bu gücə tab etməyib yavaş-yavaş əyilməkdə ikən bülbül tez özünü yetirib sinəsini onun gövdəsinə dayaq edir, gülün qamətinin əyilməsinə imkan vermir. Lakin gülün tikanları bülbülə batır, o, həlak olur. O vaxtdan bu gülün adına "xarıbülbül" deyilir…*

*Bacı sözünü bitirər-bitirməz birdən hay qopdu, hamı çaxnaşmaya düşdü, təlaş içində ora-bura qaçmağa başladı. Dəhşətli səslər eşidildi, hər tərəf od tutub*

*yanmağa başladı. Sonra yaxınlıqda bir partlayış eşidildi. Ardınca yenə dalbadal bir neçə partlayış baş verdi. Səslərin dəhşətindən artıq özünü itirmişdi. Qorxu və həyəcanla sağa-sola boylandı, ailəsini görmək üçün irəli dartındı, amma faydasız idi – ətrafda kimsə yox idi. Bir qədər aralıda əlləri bir-birinə sıxılmış bacı-qardaş hərəkətsiz halda uzanmışdı. Birdən başında dəhşətli bir ağrı hiss etdi, özünü bayılmaqdan güclə saxladı. Var gücünü toplayıb vücudunu əyməməyə çalışırdı. Bu vaxt üzərində ağırlıq hiss etdi – dəmir dırnaqlı bir ayaq üstündən keçmişdi. Artıq dayanmağa tabı qalmadı, huşunu itirdi…*

*Elə o dəhşətli gündən sonra acı həyatı başladı Şuşanın. O top səsi, o mərmi vıyıltısı aldı Şuşanın şənliyini əlindən, daddırdı ona vahimənin ən acısını. İndi bu doğma torpaq inləyir qaba ayaqlar altında, boğulur özgə nəfəsdən, diksinir yad səsdən. Gen sinəsindən boylanan xoş ətirli çiçəklərini, güllərini özləyir Şuşa. İndi bu güllər daha əvvəlki kimi ətir saçmır, əvvəlki kimi Günəşə məhəbbətlə baxmır. O çöllər, çəmənlər hər bahar yaşıl dona bürünsə də, əvvəlki şuxluğu qalmayıb daha. Ayın şöləsi azalıb,Günəşin istisi, çayın səsi yox olub, bulaqların nəğməsi. Dağlar da əzəmətini itirib sanki – beli bükülüb, qəddi əyilib. Hələ quşlar… Onlar niyə elə qəmli oxuyur? Sanki nalə çəkir, üsyan qoparır…*

*Qoca palıdın səsi xarıbülbülü düşüncələrdən ayırdı:*

*– Amma belə getməz, geci-tezi var, haqq öz yerini tapacaq. O zaman cinayətkar cəzasına çatacaq, biz isə doğma Şuşamızın qoynunda yenə də şad-hürrəm ömür sürəcəyik. O gün mütləq gələcək!*

*Xarıbülbül gözlərini yumdu – bu dəhşətli mənzərəni görməmək üçün göz qapaqlarını bərk-bərk bir-birinə sıxdı. O yatmaq istəyirdi. Ayıldığında isə gül-çiçəkli, çal-çağırlı Şuşanı görəcəkdi. O buna çox inanırdı…*

"Yox, biz səni o vəhşilərdə qoymayacağıq, Şuşam, biz səni qaytaracağıq! Darıxma, xarıbülbül, az qaldı, lap az qaldı! Qayıdacaqsan o çal-çağırlı günlərə", – dəftəri örtüb yatağına uzandı...

* * *

Noyabrın 4-ü idi. Havada xəfif şaxta sezilirdi. Artıq buralara qış gəlməkdə idi. Bəzi dağlıq yerlərə hətta qar da yağmışdı.

Şuşa qayalarla əhatə olunmuş bir ərazidə yerləşirdi. Ora düz yolla daxil olmaq mümkün deyildi. Düşmən öz mövqeyindən əsgərləri rahatca aşkar edə bilərdi. Odur ki, Şuşaya girişi qayalara dırmaşmaqla həyata keçirmək qərara alındı. Şuşaya giriş üç istiqamətdə təşkil olundu. Saday və yoldaşları sol istiqamətdən qayalara kəndirlə

qalxıb Şuşaya doğru irəlilədilər. Nə qədər çətin olsa da, ürəyi vətən eşqi ilə döyünənlər bu torpaqdan güc alıb bunu bacardılar. Onları nə dağların şaxtası, nə də qayaların sivri çıxıntıları qorxutdu. Onlar addım-addım deyil, qarış-qarış irəlilədilər. Birgünlük yolu dörd günə gələrək təyin olunmuş nöqtəyə yetişdilər.

Düşmən Azərbaycan əsgərlərinin bu istiqamətdən gəlişini gözləmirdi. Bütün qüvvəsini Şuşanın girişində səfərbər edib hazır dayanmışdı. Çünki Şuşaya girmək üçün bir yol var idi, digər tərəflərdən giriş isə mümkünsüz idi. Gözlədiklərinin əksini görəndə düşmən arasına çaxnaşma düşdü. Artıq içlərində əməlli-başlı təşviş vardı. Azərbaycan əsgərlərinin belə sıldırım qayalara necə çıxdıqlarını ağıllarına sığdıra bilmirdilər. Təlaşla mövqelərində ora-bura qaçır, gördükləri hər qaraltıya atəş açırdılar. Cəsur Xüsusi Təyinatlı Qüvvələrin əsgərləri onların kabusuna çevrilmişdi. "Gözəgörünməz" adlanan bu igidlər düşmənin düz oturduğu yerə qədər irəliləyir, ona göz açmağa macal verməyib yerindəcə məhv edirdi. Azərbaycan əsgərinin bu cəsarətindən qorxuya düşən erməni əsgərləri dəhşət içində bir-birlərinə deyirdilər: "Bunlar necə canlıdırlar? Bunları öldürmək mümkün deyil, vurursan, yıxılır, sonra

ayağa qalxıb yenə üstünə gəlir. Bunlar ölməzdir, bu əsgərlərə qalib gəlmək mümkün deyil".

Artıq neçə gündür asta-asta irəliləyən döyüşçülər yorulmuşdu. Soyuq hava, sərt relyef onların işini çətinləşdirirdi. Yağışa düşən əsgərlər geyimlərini qurutmağa imkan tapmırdı. Dağlardan əsən külək elə əyinlərindəcə paltarlarını qurudurdu. Ac, susuz günlərlə yol gələn əsgərlərə dincəlmək, qüvvə toplamaq lazım idi.

Onlar Şuşa qalasına çatıb dayandılar. Aclıqdan və susuzluqdan taqətləri tamam kəsilmişdi. Keçdiyi yollarda yabanı bitkilərin zoğunu qırıb suyunu dodaqlarına sürtməklə susuzluqlarını yatırırdılar. Qalanın altında, Xankəndi yolunun üstündə bir təpə vardı. Orada bir qədər dincəlməyə qərar verdilər. Çünki bundan sonra gedəcəkləri yol daha çətin, daha məsuliyyətli olacaqdı – Şuşaya giriş təmin olunacaqdı. Bunun üçün onların güc toplamağa ehtiyacı var idi.

Noyabrın 7-də gecə vaxtı bütün qruplar özlərinə mövqe seçib səngər qazdı. Bir neçə saat dincəldikdən sonra yenidən yola çıxacaqdılar.

Gecə saat 2-3 olardı. Saday bir kənara çəkilib oturmuşdu. Ramazan onun yanına gəldi. O, bilirdi ki, Sadayın yeni çəkmələri onun ayağını sıxır.

Bu neçə gün ərzində yəqin ki, ayağını lap vurub yara etmişdi. Odur ki, ona dedi:

– Çəkmələrini çıxart, ayağın dincəlsin, gör neçə gündür ayağındadır. Hələ qarşıda çətin tapşırığımız var.

– Hər şey qaydasındadır, – deyə Saday yorğun gözlərini qaldırıb dostunun üzünə baxdı,– mən bura bu çəkmələrlə gəlmişəm, bunlarla da qayıdacağam.

Ramazan nəsə demək istəyirdi ki, birdən düşmən tərəfindən atəş açıldı, onun sözü yarımçıq qaldı. Düşmən onların yerini müəyyən edib atəş açmağa başlamışdı. Nəticədə əsgərlərdən ikisi yaralandı. Ramazan yaralı döyüş yoldaşlarına yardım edəndə Saday onun yanına gəldi:

– Cənab komandir, nə kömək lazımdır,edim?

– Problem yoxdur, sən öz yerinə get, səngərini dərinləşdir, – deyə Ramazan ona mövqeyinə qayıtmağı tapşırdı.

Səhər saat 5 radələri idi. Əsgərlərin yerini müəyyən edən düşmən dörd tankla gəlib Xankəndi istiqamətində dayanmışdı. Bu, çox yaxın məsafə idi. Gecəgörmə cihazı vasitəsilə düşmən onları aydın görürdü. Dayanmadan tanklardan atəş açılmağa başladı. Dəhşətli mənzərə idi. Mərmilər yüz metrlik məsafədən atılırdı. Düşmən göz aç-

mağa imkan vermirdi. Mərmilərin səsindən qulaq tutulurdu.

Artıq tanklar əlli metrlik məsafəyə qədər yaxınlaşmışdı. Hər qrup öz heyətini toplayıb yuxarı mövqeyə çəkildi ki, qəlpələrdən qorunsun. Bu zaman məlum oldu ki, şəxsi heyətin yarıdan çoxu yoxdur. Altmış üç yaralı və qırx yeddi şəhidin olduğu bəlli oldu.

Saday tanklardan birinin ona yaxınlaşdığını görüb özünə mövqe seçdi. Şuşaya qayalarla daxil olduqlarından özləri ilə ağır silah götürməmişdilər. Sadayın da yanında bir avtomat, bir də tank əleyhinə idarə olunan raket vardı. O, ayağını sıxan çəkmələrinin bağını tələsik açıb soyundu. Avtomatı çiynindən çıxarıb yerə qoydu. Raketlə yaxınlaşmaqda olan tankı nişan aldı: "Gəl, köpək, ölümün mənim əlimdədir. İndiyə qədər torpağımızda törətdiyiniz bütün cinayətlərin cavabını alacaqsınız",– deyib atəş açdı. Atdığı mərminin dalğası onu bir neçə addım geri tulladı. Ətraf toz-dumana qarışdı. Bir neçə saniyə göz gözü görmədi. Toz çəkiləndə Saday alovlanan tankın onun üstünə gəldiyini gördü. Yastı bir daşın dalında özünə mövqe seçib avtomatını götürdü, yaxınlaşmaqda olan tanka atəş açmağa başladı. Bu zaman lap yaxınlıqda bir mərmi partladı. Saday qulaqla-

rının tutulduğunu, sonra gözlərinin qaraldığını hiss etdi. Başından axan isti maye bütün sifətini bürüdü. Yanında heç kim yox idi, kimisə çağırmaq istədi, amma səsi çıxmadı. Ayaq üstə dayana bilməyib yerə yıxıldı. O, qartal baxışları ilə son dəfə vətən torpağını süzdü. Amma məğrurluğunu itirmək istəmirdi. Yaralı vəziyyətdə çox sevdiyi qayalara doğru sürünməyə başladı. Çətin də olsa özünü qayalara çatdıra bildi. Hər zaman qayaların başında olan qartalın bu dəfə ora əli çatmırdı. Yaralı qanadlarını qayaların dibinə sərərək başını son dəfə vətən torpağına qoydu. Onun qoxusunu ciyərlərinə çəkdi. Elə bu an dəhşətli partlayış səsi ətrafa yayıldı. Tankın alovlanan parçaları Sadayın yumulmaqda olan gözlərində son işığı əks etdirdi.

Qartal artıq əhdinə çatmışdı. Çox sevdiyi Şuşasının azadlığını görürdü. Artıq onun ruhu azad etdiyi Şuşa göylərində, qayaların başında fəxrlə süzürdü...

Mərmi zərbəsi Ramazanı yaxınlıqdakı təpəyə çırpıb başını zədələmişdi. Qulaqları eşitmirdi, başında dəhşətli uğultu var idi. Artıq hava işıqlanmışdı, ətraf aydın görünürdü. O, yan-yörəsinə boylandı, yerdə yaralılar var idi. Sağ qalanlar yaralılara kömək etmək üçün bir-birini səsləyir-

di. Ramazanın gözləri dostu Sadayı gəzdi, amma onu heç yerdə görə bilmədi. O, qalanın dibinə tərəf süründü. Qalanın aşağı hissəsində qalın böyürtkən kolları var idi. Ramazan əlli metrə qədər yolu sürünərək dostunu axtarmağa başladı. Bir qədər irəlidə Sadayı uzanmış vəziyyətdə görüb qəlpədən qorunmaq üçün mövqeləndiyini düşündü. O, var gücü ilə dostunu səslədi:

– Sadaay! Saadaay!

Amma Sadaydan cavab gəlmədi. Bu dəfə Ramazana elə gəldi ki, Sadayın da qulaqları mərmi zərbəsindən tutulub, onu eşitmir. Sürünə-sürünə ona yaxınlaşdı, əli ilə nəbzini tutdu – nəbzi vurmurdu. Ramazan yalnız bu zaman Sadaya diqqət etdi – qəlpə onun başının bir tərəfini aparmışdı. O, göz yaşları içində dostunu arxası üstə çevirdi. Qəlpələr Sadayın qarın boşluğunu da yarmışdı. Ramazan dostunun cansız bədənini qucaqlayıb hönkür-hönkür ağladı. Onun heç vaxt ayağından çıxarmadığı sevimli sarı çəkmələri bir kənarda cütlənmiş halda Ramazanın gözünə sataşdı:

"Mən indi Məhəbbət xalaya nə cavab verəcəyəm, ay Saday? Axı o səni mənə tapşırmışdı".

Ramazan bir qədər irəlidə bir neçə döyüş yoldaşlarının yaralı olduğunu görüb onlara tərəf süründü. Yaralılara yardım etmək üçün yoldaşlarını

səslədi. Sonra şəhid olmuş yoldaşlarının nəşini bir-bir gətirib yolun yaxınlığında bir yerə yığdı. Tanklar artıq yaxınlaşırdı, yaralıları səngərə aparmaq mümkün deyildi. Tez bir zamanda yaralı və şəhidləri bu ərazidən çıxarmaq lazım idi ki, düşmən əlinə keçməsin. Yaxın məsafədə olan düşmən Azərbaycan tərəfində xeyli yaralı və şəhid olduğunu bildiyindən həmin əraziyə daxil olub onları götürmək istəyirdi. Böyük qrupdan qalmış iyirmi yeddi nəfərlik bir heyətlə bütün yaralılar həmin ərazidən çıxarıldı. Yaralıları qalaya gətirib tibbi yardım göstərdilər. Onlardan yalnız birini xilas etmək mümkün olmadı, sağ qalanlar isə təxliyyə olundu.

Xankəndi yolunun üstündə düşmənə müqavimət göstərən əsgərlər onların qarşısını kəsib irəli gəlməklərinə imkan vermirdilər. Bu döyüşdə düşmən tərəfi də böyük itki ilə üzləşdi.

Artıq Azərbaycan əsgərlərinin hərbi sursatı tükənmək üzrə idi, onlar əlavə qüvvə gələnə kimi həmin yerdə gözləməli idilər. Lakin gözləmək olmazdı, vaxt az idi. Kiçik qrup heyəti Şuşada yerləşən düşmən hərbi hissəsinə girib silah götürdü. Şuşa qalası igid oğullarını düşmən atəşindən qorudu. Düşmənin atdığı mərmilər qala divarına dəyib qalanı titrədir, amma divarları uçura bil-

mirdi. Qalada özünə mövqe seçmiş, silahla təchiz olunmuş heyət düşmənə hücum edərək üzərinə gələn üç tankı məhv etdi. Düşmən məğlub olub geri çəkildi, Azərbaycan əsgərləri Şuşaya daxil oldu.

Sağ qalan əsgərlər şəhidlərin nəşini götürmək üçün aşağı endilər. Ramazan dostu Sadayı qoyduğu yerə gəldi. Onu çiyninə alıb qalaya tərəf yollandı...

* * *

Artıq qızıl payızın nəfəsi hər yerdə hiss olunurdu. Kəndlərın, dağların füsunkar payız mənzərəsi könülləri oxşayırdı. Təbiət öz sehrli fırçası ilə vətən torpaqlarını sarı-qəhvəyi rəngə boyamış, çəmən üzərinə qızılı xalı salmışdı. Yağan yağışlar bu xalını yuyur, qışdan xəbər verən soyuq küləklər bu xalının saçaqlarını darayırdı.

İşdən qayıdan Məhəbbət evə keçmədən əvvəl həyətə tökülmüş sarı yarpaqları süpürüb topladı, bir kisəyə yığıb yoldaşı Rzanı səslədi:

– Ay kişi, gəl bu yarpaqları apar, tök zibilliyə. Bir gün süpürməmişəm ey, yarpaq dizə çıxıb.

– Payızın işi budur da, ay Məhəbbət, xəzəlsiz nə payız? – deyə Rza kişi kisəni arabaya qoydu.

– Yaxşı, dinmədim day, gedim, çörək hazırlayım, sən də işini bitir, gəl, – deyib evə keçdi.

Qonaq otağına girəndə Sadayın şəklini yerdə gördü. Tez əyilib şəkli götürdü. Şüşə çərçivə sınmışdı. Ana həyəcanlandı. "Bunu yerə kim salıb?"– deyə öz-özünə dilləndi. Tez bayıra çıxdı.

– Ay Rza, ay kişi, – deyə ərini səslədi, – gəl hələ bura.

– Nə var, ay Məhəbbət, nə olub? – Rza kişi soruşanda Məhəbbət gözü yaşarmış halda əlindəki çiliklənmiş şəkli göstərdi.

– Bu şəklə nə olub? – Rza kişi təlaşla soruşdu.

– Bilmirəm, gəldim, gördüm yerdədir,– Məhəbbət göz yaşları içində cavab verdi,– bəlkə balamın başında nəsə bir iş var. Neçə gündür, zəng də eləmir.

– Yaxşı, səbirli ol, pis şey düşünmə. Nə olacağe Sadaya? Neçə ildir, hərbidədir, hər yol-yolağı bilir, – deyə Rza kişi əslində özünə təsəlli verdi. Amma onun da ürəyi həyəcanla döyünürdü. Doğrudan da, neçə gün idi ki, Sadaydan xəbər yox idi.

Rza kişi tez harasa zəng etdi, kiminləsə danışdı. Sonra arvadı Məhəbbətə tərəf dönüb dedi:

– Komandiri ilə danışdım, dedi, narahat olmayın, bir-iki günə evə gələcək.

– Bəs demədi hardadır, necədir?, – ana narahatlıqla soruşdu.

– Yox, heç nə demədi.

– Allahım, sən heç bir ananı gözüyaşlı qoyma, bütün əsgərlərimizi qoru! – deyə Məhəbbət Allaha dua etdi.

– Amin! – Rza kişi onun səsinə səs verdi.

Noyabrın 8-də bütün ölkə Şuşanın alınmasını bayram edirdi. Hər yerdə sevinc, şadlıq səsləri eşidilirdi. Azərbaycan Ordusunun qədim Şuşa şəhərinə daxil olması, Şuşanın azad edilməsi xəbəri bütün ölkədə sevincə səbəb oldu, bayrama çevrildi. Şuşanın geri alınması ilə də qələbənin yaxınlaşdığını hər kəs bilirdi. Şuşasız Qarabağı təsəvvür etmək, qələbəni qeyd etmək əsla mümkün olmazdı. Əzəli və əbədi Azərbaycan torpağı olan, Qarabağ mahalının gözü sayılan Şuşa qələbənin möhürünü vurdu. Artıq işğalda olan digər ərazilərin azad olunması asanlaşacaqdı. Şuşaya giriş etmək çox vacib məqam idi. Şübhəsiz, Saday da bunu bilirdi və bütün varlığıyla bu şəhərə girişi təmin etməyə köklənmişdi.

Noyabrın 10-da hər kəs gözünü qələbə xəbəri ilə açdı. Xalq bu xəbəri uzun zamandan bəri gözləsə də, bu tezliklə buna inanmaq çətin idi. Çünki hələ azad olunmamış bir neçə ərazi qalırdı, onları da yağı tapdağından qurtarmaq üçün daha bir neçə gün lazım olacaqdı. 44 gün ərzində gedən

döyüşlərdən qazanılan qələbə xalqda özünəinamı gücləndirmiş, ruhyüksəkliyini artırmışdı. Hər kəs torpaqların hərb yolu ilə alınmasının tərəfdarı idi. Qüdrətli Azərbaycan Ordusu, qəhrəman Azərbaycan əsgərləri bunun mümkünlüyünü sübut etmişdi. Lakin bəzən müharibələr siyasi yolla da həll oluna bilir. Tarixə nəzər salaraq bunu görmək olar. Azərbaycanın döyüş tarixində xüsusi yeri olan 44 günlük Vətən müharibəsi də siyasi yolla sonuclandı. Noyabrın 10-da Bakı vaxtı ilə saat 01:00-da Moskvada üçtərəfli müqavilə imzalandı. Həmin müqaviləyə əsasən, bu andan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabradək Ermənistan qüvvələrinin Dağlıq Qarabağın ətrafında Ermənistan ərazisindəki Azərbaycan ərazilərindən çıxarılması və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi göstərilmişdir. Eyni zamanda, bu müqavilədə 2020-cil il noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də Laçın rayonlarının azad edilməsi qərarı öz əksini tapmışdır.

Bu xəbəri eşidən xalq küçələrə, meydanlara axışıb əllərində üçrəngli Azərbaycan bayrağı,

dillərində vətənpərvərlik mahnıları ilə bu böyük zəfəri qeyd edirdi. Hər kəs bir-birini təbrik edərək bu möhtəşəm günün sevincini yaşayırdı. Otuz ildir, həsrətlə gözlənən bu günü bütün ölkə bayram edirdi. Amma bu sevincin, şadyanalığın içində acı bir sızıltı da var idi – şəhidlər... Qələbə sevincini onlara yaşadanları xalq unutmamışdı. Hər üç cümlədən ikisi şəhidlərin ruhunu anmaq, onları ehtiramla xatırlamaq, eyni zamanda, qazi və əsgərlərə cansağlığı diləmək idi. Bu möhtəşəm hissi onlara yaşadanlara bir ömür borclu olduğunu hər kəs bilirdi. Çünki illərlə yaşanan bu ağrı-acını məhz onlar susdurmuş, qəlblərin yarasına məhz onlar məlhəm olmuşdu. Amma indi onların da ruhu şaddır, qanları hədər axmadı, canları əbəs getmədi. Onların uğrunda can qoyduqları torpaqlar azaddır, nəfəs verdikləri o yerlər dirçəlib, ayaq basdıqları hər çığırdan bir çiçək boylanır. Belə bir alnıaçıqlıq, başıdiklik qoyub getmişdi şəhidlər onlara. Bunun əmanət olduğunu da yaxşı bilirdi hər kəs. Şəhid qanı ilə alınmış torpaqlar gələcəyə miras idi. Onu bu günün sahibləri qorumalı, gələcəyə ötürməli idilər. Bu əmanətə xəyanət etməmək üçün xalq bu gün küçələrə axışıb səmadan onlara baxan şəhid ruhları qarşısında söz verirdilər. Bundan sonra bu xalqın öz qələbə-

sini ürəklə qeyd edəcəyi bir günü var idi.

Amma Məmmədəliyevlər ailəsində narahatlıq və üzüntü var idi – Sadaydan xəbər yox idi. Onların bayramı Saday evə gələndə olacaqdı. Komandirin "bir-iki günə gələcək" dediyindən artıq 3 gün ötürdü, ancaq Saday hələ də gəlməmişdi. Rza kişi dəfələrlə hərbi komissarlığa gedib oğlunu soruşsa da, dəqiq cavab ala bilməmişdi.

Həmin günün axşamı Ramazan dostunun ailəsinə zəng vurdu:

– Rza əmi, hazırlaşın, kəndimizə şəhid gəlir...

Üç gündən sonra Saday doğulduğu kəndə gəldi. Üçrəngli vətən bayrağına bükülmüş qəhrəmanı uşaqlar qabağına qaçaraq, cavanlar əllərində bayraq alqışlayaraq, yaşlılar isə göz yaşları içində qarşıladı...

Saday Məmmədəliyev şəhadət zirvəsinə ucaldıqdan sonra Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif olunmuşdur.

## BAYRAĞIM

Ey istiqlal müjdəçisi, məğrur bayrağım!
Zirvələrdə vüqar ilə dalğalanırsan!
Qucağını açmış sənə ana torpağım,
Sinəsində həzin-həzin yırğalanırsan.

Sən hürriyyət göylərində doğan günəşim!
Şəfəqlərin səpələnmiş bütün cahana!
Fitrətinə bağlı mənim hər yüksəlişim,
İstiqlalın qoxusunu yaydın hər yana!

Ulu türkdən xatirə var geniş sinəndə,
O al rəngli həqiqətdən almısan ilham!
Mənə aid üç bildiriş cəm olub səndə –
Həm türkçülük, həm azadlıq, həm dinim islam.

Əbədiyyət üfiqində bərqərar oldun,
Qamətini nə gün yaxar, nə də yel yıxar!
Əsrə yaxın bir zülmətdə, zatən, yoruldun,
Yetmişillik ayrılığın acısın çıxar!

Yenilmədin! Nə tufanlar keçdi başından!
Mətinliyin, məğrurluğun hər kəsə örnək!
Sən doğuldun tariximin qan yaddaşından,
Ey bayrağım, doğum günün olsun mübarək!

## ZƏFƏR NƏĞMƏSI

Şuşa gözlərini yığdı yollardan,
Laçın da həsrətin daşını atdı.
İgid oğullarım Qarabağımda
Üçrəngli bayrağı göyə ucaltdı.

Yayıldı hər yerə zəfər nəğməmiz,
Həsrətli ellərin gözləri güldü.
Rahat nəfəs aldı vətən torpağı,
Dağları sevindi, daşları güldü.

Yerlər də, göylər də sevindi o gün,
Çıxdı azadlığa doğma yurdumuz.
Qovub elimizdən yağı düşməni
Qələbə qazandı şanlı ordumuz!

## VƏTƏNƏ DAYAQ

Vətən çağıranda köməyə səni
Övladlıq borcunu verməyə getdin.
Torpağı qoruyub mənfur yağıdan,
Hər dağın, hər daşın hayına yetdin.

Səni salamladı vətən çölləri,
Doğma ana kimi basdı bağrına.
Bu haqq savaşında zəfər çalmağa
Xeyir-dua verdi igid oğluna.

Atıldın meydana bir aslan kimi,
Güllələr dolutək yağdı başına.
Bütün varlığını qurban eylədin
Vətən torpağının bir qarışına.

Gəlişin düşməni saldı lərzəyə,
Tab edə bilmədi önündə sənin.
Qovub torpağımdan qaniçən yadı
Fəxrinə çevrildin ana vətənin.

Adın dildə gəzir, sevgin ürəkdə,
Gör neçə ürəyin bəzəyisən sən?!
Bu vətən mülkünün dayaq nöqtəsi,
Bu vətən mülkünün özəyisən sən!

## VƏTƏN SAĞ OLSUN

"Vətən, sənin basin üstə əsən yelləri
Nəfəsimlə uzaqlara ötürərəm mən.
Dağ-daşına uzanan o qara əlləri
Birdəfəlik yer üzündən itirərəm mən.

Qarşısında mən sinəmi sipər eyləyib
Yol verməram at oynada qoynunda yağı.
Kirpiyimi sərhəddinə çəpər eyləyib
Gözüm kimi qoruyaram ana torpağı.

Qucağında can tapşırsam – böyük səadət!
Ölsəm, mənə fəxarətdir, düzündə, Vətən!
"Can" dediyin nədir axı? – Bircə parça ət!
Yüz can ola, qurban edəm yüzün də, Vətən!

Ciyərimə mən çəkərəm isti ağrını,
Təki sənin sinəndəki yara sağalsın!
Qanım ilə sulayaram yanan bağrını,
Öləndə də söyləyərəm: Vətən sağ olsun!"

Vətən oğlu, qeyrətinə mən milyon kərə
Alqış desəm, "əhsən" desəm, yenə bəs olmaz!
Qan uddurdun qana həris qaniçənlərə,
Sənin kimi oğullarla vətən basılmaz!

## DOĞMA AZƏRBAYCANIM

Dağılsın qara bulud,
Nur yayılsın hər yerə.
Açıq səma altında
Yaşıllaşsın dağ-dərə.

Göylər qoy təmizlənsin
Bombaların hisindən.
Yerlər də diksinməsin
Top-tüfəngin səsindən.

Gül açsın, çiçək açsın
Çölüm, düzüm, ormanım.
Daha da gözəlləşsin
Doğma Azərbaycanım!

## ZƏFƏR FƏSLİ

Nuruyla zülməti aydınladanın
Ruhunu səmada mələklər öpdü.
Azadlıq yolçusu olan ərənim
Müqəddəs üç rəngi göylərə səpdi.

Qəlbin vətən adlı sevgi harayı
Duyan könüllərdə səs eyləyərmiş.
Sönükən nifrəti alışdırmağa
Bircə qığılcım da bəs eyləyərmiş.

Zəfər mövsümündə açan tumurcuq
Sonra pöhrələnib bəhərin verdi.
Polad iradədən qüvvət alanlar
Xalqına qələbə xəbərin verdi.

Bu payız isindi donan könüllər,
Zəfər müjdəsiylə çırpındı ürək.
İndi rahat uyu, şəhid qardaşım!
Hər azad torpağın, daşın mübarək!

## İGİD

Vətən sənə "oğul" dedi!
Hərbə hazır oldun, igid!
Sən Şuşamı, Laçınımı
Yad əllərdən aldın, igid!

Gəlib çatdı güc zamanı,
Qisas vaxtı, öc zamanı!
Boş vermədin heç zamanı,
Alaqları yoldun, igid!

Xilas olduq bu dərd-sərdən,
Xəbər verdin o yerlərdən,
Səsin gəldi Kəlbəcərdən,
Aləmə hay saldın, igid!

Adın düşdü dildən-dilə,
Sözün gəzdi eldən-elə,
Əbədi bir sevgi ilə
Ürəklərdə qaldın, igid!

Azad etdin Qarabağı,
Həsrətdəydi daşı, dağı.
Şuşaya sancıb bayrağı
Zəfər marşı çaldın, igid!

## ŞƏHİDLƏR

Vətən sevgisini ən uca bilib
Onu qorumağa getdi şəhidlər.
Torpağa əkilmiş bir toxum kimi
Qəlblərdə cücərib bitdi şəhidlər.

Doğma yurd-yuvasın özləyən xalqa,
Qəlbinə dağ basıb közləyən xalqa,
Otuz il həsrətlə gözləyən xalqa
Qələbə ərməğan etdi şəhidlər!

And içib vətənin hər dağ-daşına
Yollandı oğullar haqq savaşına.
Şəhadət şərbətin çəkib başına
Ən ali məqama yetdi şəhidlər!

## CƏNNƏTDƏ YERLƏR DOLUBDUR

Səma necə aydınlanıb?!
Göy üzünü ruh alıbdır.
Yerdə vətən olanlarım
Qalxıb göyə ucalıbdır.

Anadan mərd doğulanın,
Yüksələrək dağ olanın,
Libası bayraq olanın
Bəylik libası solubdur.

Özü – xalqın diləyində,
Səsi – payız küləyində.
Mərmi dələn ürəyində
Bir vətənlik yer qalıbdır.

Dilim quru, gözüm sulu,
Ahımın göyədir yolu –
İlahi, saxla qəbulu,
Cənnətdə yerlər dolubdur.

## ƏSGƏR GEYİMİ

Övlad acısını daddıran fələk
Dilinin ən şirin tamını aldı.
Dolub pəncərəndən evinə külək
Dirəyiqarışıq damını aldı.

Köçdü qaranlıqlar nurlu dünyana,
"Dağ"ın arxasında batdı günəşin.
Əbədi oyandı zülmətin, ana,
Əbədi yataqda yatdı günəşin.

İndi zamanın da səbir fərmanı
Azadlıq bəxş etməz dustaq ağrına.
Canından bir parça olan o canı
Torpaq "balam" deyib basdı bağrına.

Aldı qucağına balanı torpaq,
Onu əzizlədi öz oğlu kimi.
Səninsə təsəllin – üçrəngli bayraq,
Bir də balan qoxan əsgər geyimi.

## ŞƏHİD ATASI

Bir ata ürəyi yenə inlədi,
Kədərlə çatıldı yenə də qaşlarf.
Bu ahı, naləni necə dinlədi
Qaniçən qatillər, ürəyidaşlar?

Dağ kimi vüqarla dayansan da sən
Ürəyin hönkürüb ağlayır, ata.
Əlinlə torpağa bir ər verirsən,
"Əməlin" köksünü dağlayır, ata.

Çiynini bu ağır qəm yükü əzdi,
Ağrıdan bağrının başı söküldü.
Fələk də qəddini əyə bilməzdi,
Oğul dərdi ilə belin büküldü.

Əbədi qaraldı gur yanan çıraq,
Dağıldı xaniman, uçdu təməlli.
Sənisə söz ilə ovutdular, bax,
Söz ilə verdilər quru təsəlli.

İndi nə desələr, azalmaz dərdin,
Bu ağrı səddini çətin aşarsan.
Dağ kimi oğlunu torpağa verdin,
Dağ boyda dərdinlə necə yaşarsan?!

# VƏTƏN OĞLUM

Köksündə vətən eşqi
Döyüşə gedən oğlum.
Xalqımın yurd həsrətin
Qələbə edən oğlum.

Sinəsində dağ olan,
Köynəyi bayraq olan,
Yarısı torpaq olan,
Yarısı bədən oğlum.

Adı dillərdə qalan,
Şəkli əllərdə qalan,
Sevgisi vətən olan,
Özü də vətən oğlum.

Qəlb çəkəmməz bu dağı,
Dildə dolaşar ağı,
Qucub ana torpağı
Əbədi yatan oğlum…

## ŞƏHİD ANASININ DİLİNDƏN

“Ana, öz haqqını halal et mənə,
Sənin əməyindir – igid olmuşam.
Başını uca tut, əymə sinənə,
Mən vətən yolunda şəhid olmuşam!”

Elə bil od tutur gəldiyin yollar,
Dağlayır bağrımın başını, bala.
Gedərkən arxanca su atan əllər
İndi qucaqlayır nəşini, bala.

Gedəndə sən özün getmişdin axı,
Atanı qoymadın ötürsün səni.
Bir bax, ətrafında dayanıb çoxu
Tez önə keçir ki, götürsün səni.

Bütün dostlarını tanıyırdım mən,
Yanında görürəm çox yad adamı.
Can balam, necə də sevilirmişsən!
Sənin gəlişinə yığılıb hamı.

Demişdin, qoy gəlim, bir aş dəmlə sən
Qoxusu yayılsın bütün mahala.
Qırmızı qutuda evə gəlmisən,
Ürəyim kababa dönübdür, bala!

Yel əsər, sel axar, bitməz ki dərdim!
Gəlişin nə ağır gəldi anana?!
Hər zaman mən “sənə qurban” deyərdim,
Sən mənim yolumda döndün qurbana.

Sənsiz daxmamızın çırağı sönük,
Hələ evimizdə bir az da qal sən.
Yol uzaq, sinəndə çox ağırdır yük,
Hələ bir rahatlan, dincini al sən.

Gəl qoyum başını dizlərim üstə,
Qara tellərini oxşayım sənin.
Gəl səni saxlayım gözlərm üstə,
Ağrısı azala bəlkə sinənin.

Gəl sənə bir layla oxuyum, dincəl,
Gözündən yuxun da tökülür, oğlum.
Gəl, anan boyuna qurban olsun, gəl,
Üçrəngli bayrağa bükülü oğlum…

## ŞƏHADƏT SARAYI

Elə bir ölüm ola,
Sevəsən hər anını.
Canını acıtmadan
Ala sənin canını.

Cismini torpaq quca,
Göylərə qalxa ruhun.
Səmadan yer üzünə
Fərəhlə baxa ruhun.

Elə bir ölüm ola,
Çıxarasan dadını.
Ölümlə qazanasan
Ölümsüzlük adını.

Əməldə göstərəsən
Xalqa məhəbbətini.
Birnəfəsə içəsən
Şəhadət şərbətini.

Sənə hörməti ola
Günəşin də, Ayın da.
Sənə də yer ayrıla
Şəhadət sarayında.

## ŞUŞA QARTALI

Sancıb Qubadlıya Vətən bayrağın,
Sevincə qərq etdi daşın-torpağın,
Hər kəs seyr eylədi tarix yazmağın,
Tarixi yenidən yazandır Saday.

Zərbələr endirib mənfur düşmənə,
İrəli yol aldı o gündən-günə.
Düşmən gülləsinə gərərək sinə
Şəhidlik adını qazandı Saday.

Aşdı önündəki bütün sədləri,
Göstərdi düşmənə o, sərhədləri,
Füzuli, Qubadlı, Laçından bəri
Düşmənin tarixin pozandır Saday.

Qəlbində var idi arzu-istəyi,
Şuşayla döyündü ruhu, ürəyi,
Gənc yaşda puç oldu hər bir diləyi,
Arzusu qəlbində qalandır Saday.

***Əli Musaoğlu***

## ŞƏHİDİN

Atası həsrətdən şam kimi sönər,
Ananın gözündə yaş qana dönər,
Köksünə sancılan mərmilər dinər
Torpağın altında yatan şəhidin.

Canın fəda etdi öz torpağına,
Yığıldı el-aləm səs-sorağına,
Büküldü vücudu yurd bayrağına
Qanını torpağa qatan şəhidin.

Söndürdü ocağı əsən küləklər,
Bu aha ağladı göydə fələklər,
Səmadan yasına gəldi mələklər
Ən uca zirvəyə çatan şəhidin.

Torpağın sinəsi onun qanıdır,
Körpədən böyüyə hər kəs tanıdı.
Yeri əbədilik imam yanıdır
Bayrağın zirvədə tutan şəhidin.

***Əli Musaoğlu***

## ŞƏHİD ANASI

Tutub qucağında güllərdən dəstə,
Dayanıb oğlunun məzarı üstə,
Ağılar söyləyir yanıqlı səslə,
Günbəgün böyüyür, artır yarası,
Gözləri yaşlıdır şəhid anası.

Nə səhəri bəlli, nə də gecəsi,
Sanki yaşamağa yoxdur həvəsi,
Ucalır göylərə ahı, naləsi,
Köçüb bu dünyadan ürəkparası,
Gözləri yaşlıdır şəhid anası.

Dərd-qəmi böyükdür, qəlbini yeyir,
Özü öz içində yanır, göynəyir,
Torpağdan soruşur, oğlum neyləyir?
Kəsilmir sözünün ardı-arası,
Gözləri yaşlıdır şəhid anası.

Öpüb qucaqlayır məzar daşını,
Yağıştək ələyir gözdən yaşını,
Örtüb qaralarla məğrur başını,
Silinmir qəlbinin nisgili pası,
Gözləri yaşlıdır şəhid anası.

***Əli Musaoğlu***

## İşğal olunmuş ərazilər:

Xankəndi  26. 12. 1991
Xocalı    26. 02. 1992
Şuşa 08. 05. 1992
Laçın 18. 05. 1992
Xocavənd 02. 10. 1992
Kəlbəcər 02. 04. 1993
Ağdərə 07. 07. 1993
Ağdam 23. 07. 1993
Cəbrayıl 23. 08. 1993
Füzuli 23. 08 1993
Qubadlı 31. 08. 1993
Zəngilan 29. 10. 1993

## Azad olunmuş ərazilər:

Cəbrayıl 04. 10. 2020
Füzuli 17. 10. 2020
Zəngilan 20. 10. 2020
Qubadlı 25. 10. 2020
Şuşa 08. 11. 2020
Xocalı 10. 11. 2020
Xankəndi 10. 11. 2020
Xocavənd 10. 11. 2020
Ağdam 20. 11. 2020
Kəlbəcər 25. 11. 2020
Laçın 01. 12. 2020

## MÜNDƏRİCAT

ŞUŞA QARTALI ........................................................3
BAYRAĞIM ............................................................53
VƏTƏNƏ DAYAQ ....................................................55
VƏTƏN SAĞ OLSUN..............................................56
DOĞMA AZƏRBAYCANIM ...................................57
İGİD ......................................................................59
ŞƏHİDLƏR...........................................................60
ŞƏHİD ATASI.......................................................63
VƏTƏN OĞLUM ....................................................64
ŞƏHİD ANASININ DİLİNDƏN ........................65
ŞUŞA QARTALI ....................................................68
ŞƏHİDİN.................................................................69
ŞƏHİD ANASI ........................................................70

Dizayner və səhifələyici: Tünzalə Tağıyeva

Çapa imzalanmışdır: 25.10.2021
Kağız formatı: 84x108 1/32
Həcmi: 4,5 ç.v; Sifariş: 60; Sayı: 200

«Gənclik» nəşriyyatında nəşrə hazırlanmış
və ofset üsulu ilə çap edilmişdir.